# Gəncəlilər qardaş türk xalqının yanındadır

Gəncəlilər Türkiyədə baş vermiş dəhşətli zəlzələdən sonra qardaş ölkənin Gəncədəki Baş konsulluğunun qarşısına axın edir, həlak olanların xatirəsinə ehtiram əlaməti olaraq konsulluğun önünə gül dəstələri düzürlər.







Türkiyənin Gəncədəki Baş konsulu Recep Öztop anım mərasiminə gələn bütün gəncəlilərə minnətdar olduğunu bildirmişdir: "Əsl qardaş dar gündə sınanar. Ancaq biz bunu sınaq hesab etmirik. Çünki mərhum Ulu Öndər Heydər Əliyev bizi iki dövlət, bir millət adlandırıb. Türkiyə ilə Azərbaycan qardaşlığı əbədidir. Türkiyədə baş verən zəlzələ qardaş Azərbaycan xalqını da sarsıtmışdır. Bunu bura gələn insanların üzlərindəki kədərdən də görürəm".

Anım mərasiminə gələn Ayaz Əliyev deyir ki, Türkiyədə baş verən zəlzələ onu da kədərləndirib: "Həmin gündən özümə yer tapa bilmirəm. İnsanların həlak olması və yaralanması məni olduqca sarsıdıb. Həlak olanlara rəhmət, yaralananlara şəfa diləyirəm".

Natiq Məmmədov isə ürək sözlərini belə ifadə etdi: "Mən deməyə söz tapmıram. Təbii fəlakət zamanı bu qədər insanın həlak olması qəlbimi çox ağrıdır. Uçqunlar altında qalan insanların vəziyyətini çox yaxşı başa düşürəm. Yadımdadır, 44 günlük Vətən müharibəsində ermənilərin Gəncəyə atdıqları raketin dağıtdığı ərazilərdə çoxlu sayda insan uçqunlar altında qalmışdı. Hansı çətinliklə onların uçqunlar altından çıxarılmasını gözlərimlə görmüşəm".

Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov və şəhərin digər icra orqanlarının nümayəndələri də anım mərasiminə qatılıblar. N.Bayramov Recep Öztopa baş vermiş güclü zəlzələ nəticəsində həlak olanların ailələrinə və yaxınlarına, qardaş Türkiyə xalqına dərin hüznlə başsağlığı verib, yaralananlara və xəsarət alanlara şəfa diləyib.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

azerbaijan-news.az

Azərbaycan.- 2023.- 8 fevral.- S.6.